UOT 94

XATİRƏ HACIYEVA
Tarix üzrə fəlsəfə doktoru, dosent
ADU, Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrası
ORCID ID: 0000 0002 3962 6612
hajiyeva_1506@mail.ru

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ MARAQLARI

DOI: https://doi.org/10.36719/2708-065X/110/161-166

Avropa və Asiyanın kəsişməsində yerləşən Cənubi Qafqaz regionunda Avropa İttifaqının xarici siyasəti Avropanın strateji maraqlarını əks etdirən siyasətinin tərkib hissəsidir . Son onilliklər ərzində siyasi və iqtisadi dəyiişikliklər meydanına çevrilən bu region, burada öz mövqelərini möhkəmləndirməyə çalışan Avrupa İttifaqı üçün mühüm xarici siyasət obyektinə çevrilmişdi. Cənubi Qafqazla bağlı, Aİ-nin siyasətinin formalaşmasına bir sıra coğrafi, iqtisadi, təhlükəsizlik, tarixi amillər təsir göstərmişdi. Avropa İttifaqının xarici siyasət kontekstində onun maraqlarına təsir edən amillərin müəyyənləşməsi, mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: Avropa Ittifaqı; Cənubi Qafqaz; enerji; əməkdaşlıq; region; Xəzər və Qara dəniz.

Giriş. SSRİ-nin süqutu postsovet məkanında 200 ilə yazın müddətdə yeganə hegemon qüvvə olan Rusiyanın mövqelərinin dəyişməsini və beynəlxalq münasibətlər sisteminin yenidən qurulmasını zəruri etmişdi.Beynəlxalq güc mərkəzlərinin rəqabəti kontekstində dünyada gedən qloballaşma və inteqrasiya prosesi Avropa İttifaqının Cənubi Qafqaza xüsusi marağının artmasına səbəb olmuşdu .Artıq 30 ildən çoxdur ki, Cənubi Qafqaz adlı kiçik region özünün mühüm geosiyasi mövqeyinə görə dünyanın aparıcı regional oyunçularının diqqət mərkəzində qalmaqda davam edir

1. ***Avropa İttifaqının Cənubi Qafqaz siyasətini şərtləndirən amillər***. Cənubi Qafqaz dövlətlərinə regiondan kənar aktorların marağı bir sıra amillərlə izah edilirdi. Avropa İttifaqı üçün Cənubi Qafqaza maraq ilk növbədə onun əlverişli geostrateji mövqeyi ilə şərtlənirdi. Regiona nəzarətin əhəmiyyəti öz siyasətini Xəzər və Qara dəniz regionlarında fəal şəkildə realizə etməklə tamamlanmırdı. Əvvəla bu, müasir mərhələdə inkişaf dinamikası üçün mühüm əhəmiyyət kəsb edən Yaxın Şərq regionuna çıxış imkanı idi. İkincisi, Cənubi və Şimali Qafqazın qarşılıqlı əlaqəsi, Rusiyanın milli təhlükəsizliyinin təminatı nöqteyi-nəzərindən regionu xüsusi maraq dairəsinə çevirmişdi. Buna uyğun olaraq regiona nəzarət beynəlxalq oyunçulara Rusiyaya təsir üçün əlavə imkanlar verirdi. Üçüncüsü, Türkiyə və İran kimi regional aktorlara coğrafi yaxınlıq Cənubi Qafqazın Avropa İttifaqı üçün əhəmiyyətini artırmış olurdu. Türkiyənin Avropa İttifaqı üzvlüyünə iddiası Brüsselin nəzərindən kənarda qala bilməzdi. İranın nüvə siyasəti isə öz növbəsində Avropada narahatlıq doğururdu. Aİ-nin regionda irəliləyişi Ankara və Tehranla dialoqunda da öz təsirini göstərməyə bilməzdi. Regionun təbii və xüsusən də enerji ehtiyyatları, həmçinin Asiya – Sakit okean regionuna çıxışının tranzit imkanları Avropanın xüsusi maraq dairəsində idi. Bununla əlaqədar olaraq regionun stabilləşdirilməsi məsələsi həm enerji ehtiyatlarının stabil ixracı və tranziti, həm də ümumiyyətlə Avropa təhlükəsizliyinin ən mühüm amillərindən biri olan postsovet məkanının stabilliyinin təmin edilməsi cəhətindən vacib əhəmiyyətə malik idi.1990-cı illərdə Cənubi Qafqazda əsas oyunçulardan birinə çevrilən Aİ-nin "Qafqaz Siyasəti" ABŞ-dan fərqli olaraq hərbi siyasi istiqamətə deyil, sosial-iqtisadi sahəyə yönəlmişdi. Stabil enerji təminatı Avropa İttifaqına üzv dövlətlərin iqtisadiyyatının inkişafı üçün müasir mərhələdə əsas şərtlərdən biri idi. Bu məqsədin həyata keçməsi ilə bağlı Aİ dövlətləri Xəzər dənizi hövzəsinə fəal investisiya yatırmışdılar. Buradakı ehtiyatların Avropaya çatdırılması onun xüsusi diqqət mərkəzində idi. Enerji diplomatiyasında onun aparıcı qurumları tərəfindən hazırlanan xüsusi fond və proqramlar (TACİS və TRASECA) mühüm yer tuturdu. Bu qurumların nəzarəti altında enerji və nəqliyyat əməkdaşlığının parametrləri işlənib hazırlanır, karbohidrat ehtiyatlarının Avropaya çatdırılmasının əsas layihə və marşrutları dəyərləndirilirdi. Aİ ölkələrindən enerji ehtiyatlarının əsas istehlakçıları Böyük

Britaniya, Almaniya, Fransa və İtaliya idi [7]. 500 milyon istehlakçısı olan və dünyanın yüksək alıcılıq qabiliyyətinə malik bazarlarından hesab edilən Avropa dövlətləri Cənubi Qafqazla əməkdaşlıqda ilk növbədə enerji tələbatlarını ödəmək maraqlarından çıxış edirdilər. Avropa statistik məlumatlarına görə Avropa İttifaqı enerji ehtiyyatlarının istehlakına görə dünyada ikinci yeri, idxalın həcminə görə birinci yeri tuturdu. Aİ-nin əhalisi yer kürəsi əhalisinin 6%-ni və enerji bazarında dünya istehlakının 14-15%-ni təşkil edirdi. Avropa İttifaqı dünyada istehsal olunan neftin 19%, təbii qazın 16%-ni, kömürün 10%-ni istehlak edirdi [8].

1990-cı illərdən etibarən Aİ-də başlanan genişlənmə bu rəqəmlərin daha da artmasına səbəb olmuşdu. Bu Aİ-nin xarici enerji ehtiyatlarından artan asılılıq problemini nəinki aradan qaldırmış, əksinə daha da güclənməsinə səbəb olmuşdu. Aİ-nin yeni üzv dövlətlərində qazın idxal payı (72%), Aİ-dən (41,7%) daha yüksək olmuşdu. Eyni tendensiyaya neftin idxalı vəziyyətində də rast gəlinirdi (müvafiq olaraq 87,7% və 76,8%) [11].

2 . İqtisadi maraqlar. Enerji böhranlarının qarşısının alınmasına yönələn səylər, 1990-cı illərin çoxsaylı disskussiyaların əsas mövzusuna çevrilmişdi. 1990-cı ildə Dublində Avropa Şurasının iclasında Hollandiyanın Baş nazirinin enerji sahəsində ümumi siyasətin həyata keçirilməsi təşəbbüsü Avropa Komissiyasının işləyib hazırladığı Avropa Enerji Xartiyası konsepsiyasında öz həllini tapmışdı. Avropanın enerji təhlükəsizliyinin hüquqi əsaslarını yaradan, 1994-cü ilin dekabrında Lissabonda imzalanan Enerji Xartiyası Müqaviləsini (EXM) Aİ-nin bütün üzvləri, birlikləri, İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının bir sıra dövlətləri (İƏİT), Mərkəzi və Qərbi Avropa və postsovet dövlətləri, İsveçrə, Kipr, Malta, Türkiyə imzalamışdılar.

Xartiyanın mahiyyəti enerji sahəsində ticarət və investisiyaların azadlığının təmin edilməsindən ibarət olmuşdu. Xartiyanın III maddəsində EXM-n məqsədinin enerji daşıyıcıları bazarında açıq və azad rəqabət olduğu bildirilirdi. Maddə 10 (b.1) tərəfləri investisiyaların yatırılmasında əlverişli şərait yaratmağa, fəaliyyətlərində və müqavilələrin bağlanmasında qanunvericilik çərçivəsinə rəayət etməyə (b.12) çağırırdı [11].

Ticarətə aid olan hissədə tranzit qaydalarına xüsusi yer ayrılmışdır. Maddə 7-yə görə tərəflər həm milli, həm də xarici enerji daşıyıcılarının nəql edilməsi ilə bağlı əlverişli şəraitin yaradılması sahəsində öhdəlik götürmüşdülər [11]. Bu maddənin müddəalarının konkretləşdirilməsi məqsədi ilə hazırlanmış Tranzit protokolu enerji daşıyıcılarının tranzitini nəzərdə tutan layihələr, investorların inamını artırmağa xidmət edirdi. 10 dekabr 2003-cü ilə qədər EXM və onunla bağlı olan sənədləri, Aİ və 51 dövlət imzalamışdır. SSRİ-nin bütün keçmiş respublikaları, 46 dövlət [10, s.205] və Aİ müqaviləni ratifikasiya etmişdilər. Bu günə kimi EXM-i Rusiya, Belarusiya, İslandiya, Avstraliya və Norveç ratifikaya etməmişdilər. Eyni zamanda Avropada enerji siyasətinin koordinasiyasi üzrə fəaliyyətə başlanmışdır.1995-ci ildə Avrokomissiya tərəfindən aparıcı Avropa institutlarında müzakirə edilmiş "Avropa ittifaqının enerji siyasətinə" dair ilk rəsmi sənəd «Yaşıl və Ağ kitab»lar qəbul edilmişdi. Bu sənəddə qeyd edilirdi ki, *"enerji sektoru sənaye rəqabət qabiliyyətinin, enerji təhlükəsizliyinin, iqtisadi və ictimai inkişaf vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş Avropa ittifaqının ümumi səylərində hakim mövqe tuturdu"* [8, s.287-342]. "Ağ kitabda" Avropa enerji sahəsində qlobal rəqabət qabiliyyəti, enerji ehtiyyatları ilə təhlükəsiz təchizat, ətraf mühitin mühafizəsi kimi üç məqsəd ifadə olunmuşdu [9]. Aydındır ki, ikinci məqsəd enerji təchizatı sahəsində bilavasitə koordinasiya edilmiş siyasətə yönəlmişdi.

Belə sənədlərin nəşri Avropa İttifaqının enerji siyasətinin mühüm problemlərinin geniş surətdə müzakirə edilməsinin başlanğıcını qoymuşdu.

2020-ci ilə qədər «Avropa enerji sektorunun inkişafı barəsində icmal» nəşr edilmiş sənədlər içərisində mühüm və əhəmiyyətli yer tutmuşdu [12]. İcmalda göstərilirdi ki, nəzərdə tutulan dövr ərzində Avropanın enerji sektorunda ildə orta hesabla 1% olmaqla daimi artım müşahidə olunmuşdu [12].

İcmalda 2020-ci ilə qədər enerji ehtiyatlarının idxalının artım proqnozları göstərilmişdi. Enerji ehtiyyatlarına artan tələbatın və daxili enerji istehsalı göstəricilərinin aşağı düşməsi, üçüncü ölkələrdən enerji ehtiyatlarının təchizatında artan asılılıq meylinin yaranmasına səbəb olmuşdu. İcmala görə 1995-ci ildə enerji ehtiyatlarının idxalı ümumi istehlakın 48%-ni təşkil etdiyi halda 2020-ci ildə 69% olmalı idi. Bu artım bütün enerji ehtiyatlarına aid olmalı idi. Neftin idxalı 1995-ci ildəki 85%-ə qarşı 2020-ci ildə ümumi istehlakın 90%-ni təşkil etməli idi [12].

Xüsusi diqqət əsas enerji mənbəyi kimi təbii qazın idxalının artmasına yönəlmişdi. Təbii qazın həcmi bəhs edilən dövrdə 35%-dən 2020-ci ildə artaraq ümumi istehlakın 75%-ni təşkil etməli idi [12, s.24-47].

2000-ci ildə Aİ-nin 15 ölkəsi istehlak etdikləri enerji ehtiyatlarının 49%-ni idxal edirdilər. Tədqiqatçılar belə hesab edirdilər ki, 2020-ci ilə qədər bu rəqəm 62% artmalı idi [12] Aİ üzr“ əyaşıl kitab” 2020-ci ildə bu rəqəmin 51% olacağını göstərmişdi. Cənubi Qafqaz dövlətləri məhz belə alternativ ixrac mənbəyi idilər.

Yuxarıdakı proqnozlardan göründüyü kimi Aİ-nin enerji idxalından asılılığı artan xətlə inkişaf edirdi. Bu isə öz növbəsində xarici idxalın təhlükəsizliyinin təmin edilməsini Aİ-nin enerji siyasətinin əsasına çevrilməsinə səbəb olmuşdu.

Bu baxımdan Xəzər regionu karbohidrogen yataqlarının lazımınca istifadə edilməyən mənbəyi kimi Avropa İttifaqının iqtisadi maraqlarında idi. 1990-cı illərin əvvəllərində Xəzəryanı ehtiyatlara marağın artması SSRİ-nin süqutunun yekunu ilə şərtlənmişdi. Nəticədə Qafqazın yeni Yaranmış dövlətləri müstəqil xarici siyasət yürütmək imkanı əldə etmişdilər.

Xəzər dənizinin statusu məsələsi ətrafında gedən müzakirələrə baxmayaraq Azərbaycan öz milli sektoruna iddiasına əsasən buradakı enerji ehtiyatlarından istifadə etmək imkanını nümayiş etdirmişdi.

Bu imkandan istifadə edən Azərbaycan 1994-cü ildə beynəlxalq konsorsiumla birgə Xəzər neft yataqlarının istifadəsi üzrə “Əsrin müqavilə”sini imzalayaraq Azərbaycanın Qərbdəki, Qərbin isə Xəzər hövzəsindəki mövqelərini xeyli möhkəmləndirmişdi [13, s.76].

Avropa İttifaqı 1990-cı illərin əvvəllərində Xəzəryanı ölkələrin enerji potensialına böyük ümidlər bəsləyirdi. Regionun neft-qaz potensialının qiymətləndi–rilməsində mövcud məlumatlar müxtəlif olub bir birindən fərqlənmişdi.

Regionun enerji potensialının qiymətləndirilməsindən bəhs edərkən karbo-hidrogen ehtiyatlarını: proqnoz edilən (undiscovered resources) və kəşf edilən (proved reserves) ehtiyatlara bölmək daha düzgün olardı [3].

Xəzər dənizi ehtiyatlarından neftin qiymətini dəyərləndirən ABŞ enerji Departamenti Konqresə məruzəsində bu rəqəmin 24 milyard ton təşkil etdiyini bildirirdi. Avropa İttifaqında Xəzər dənizinin mümkün ehtiyatlarının Yaxın Şərqin aşkar edilmiş ehtiyatlarının 25%-ni təşkil etdiyi bildirilir və 200 milyard barrel (təxminən 27 milyard ton) dəyərində qiymətləndirilirdi [6, s.147-162].

Lakin bu qədər neftin olma ehtimalını bir çox mütəxəssislər, o cümlədən Avropa siyasətçiləri şübhə altına almışdılar. Aparılmış tədqiqatlar Xəzər hövzəsində 40 milyard barrel neft (təqribən 5 milyard ton) ehtiyatları olmasını sübut edirdi. Qeyd edilirdi ki, Xəzər dənizinin ehtiyatlarına ABŞ-ın rəsmi sənədlərində verilən proqnoz 1990-cı ilin ortalarında Birləşmiş Ştatların Cənubi Qafqaza qarşı tutduğu mövqeyi kəskin surətdə dəyişdiyi bir zaman meydana gəlmişdir. Ona görə də verilmiş məlumatlar məqsədyönlü şəkildə artırılmışdı [1].

Xəzəryanı ölkələrdən dörd respublika xeyli enerji ehtiyatına malik olmuşdu. Qazaxıstan və Azərbaycanda əsasən neft, Türkmənistan və Özbəkistanda qaz ehtiyatları üstünlük təşkil edirdi. Rəsmi statistikanın məlumatlarına görə bu dörd respublikanın ümumi ehtiyatları 6 milyard maye karbohidrogenlər və 7 trilyon kub metr qaz təşkil edirdi [1]. Bu rəqəmlər Avropada göstərilən rəqəmlərdən praktiki olaraq fərqlənmirdi.

Cədvəl 1.3.1.1.

Ölkələr	*Nəzarət edilən sahə (%)*	*Aşkar edilmiş ehtiyyatlar (milyard barrel)*	*Proqnoz ehtiyyatlar (milyard barrel)*
Qazaxıstan	29,9	10	85
Azərbaycan	20,7	3,6	27
Türkmənistan	19,2	1,4	32
İran	14,6	0	12
Rusiya	15,6	0,2	12

Mənbə: ABŞ-ın enerji Departamenti, 1997, sitat: Le Monde, 11.07.1998 [15, s.277].

Göründüyü kimi Xəzəryanı ölkələr müxtəlif növ enerji ehtiyatlarının potensial mənbəyi kimi Aİ analitiklərinin diqqətini daha çox cəlb etmişdi.

Avropa İttifaqı enerji ehtiyatlarının potensial istehlakçısı kimi regionda mühüm geopolitik və iqtisadi maraqlara malik olmuşdu [14]. Aİ fəaliyyətinin əsas inkişaf istiqamətləri regionda təkcə yeni qaz və neft kəmərlərinin deyil, həmçinin, nəqliyyat yollarının işlənməsi və inşası təşkil etmişdi.

Qara dəniz iqtisadi Alyansının (QİA) üzvü idi olan Azərbaycan, Gürcüstan və Ermənistan eyni vaxtda Avropa İttifaqı ilə Əməkdaşlıq və Tərəfdaşlıq sazişi imzalamış (1996) və əsas motivinin Aİ-nin enerji maraqları təşkil edən əməkdaşlığa başlamışdılar [4, s.38].

Cənubi Qafqaza rəsmi səfərə gələn Fransa gənclər və idman naziri Fransua Lamuru, 2004-cü il noyabrın 3-də Bakıda Azərbaycan Prezidenti İ.H.Əliyevlə görüşərkən enerji daşıyıcılarının Avropaya ixracının çoxvariantlı təminatı kontekstində regionla əməkdaşlığa Aİ-nin xüsusi marağını qeyd edərək bildirmişdi ki, Ai-nin məqsədi regionla uzunmüddətli əməkdaşlığın həyata keçirilməsidir. Bu işdə əsas zəmanət regionda stabilliyin təminatıdır [6, s.86].

Xəzər ətrafında böyük maraqların cəmlənməsində əsas rolu isə Azərbaycan oynamışdı. Azərbaycan təkcə karbohidrat ehtiyatlarının mənbəyi kimi deyil, həm də Xəzər hövzəsindən Qərb istiqamətində neft və qazın ixracı üçün əlverişli coğrafi mövqedə yerləşirdi.

Ermənistanın iqtisadi inkişaf yolunda əsas maneələrdən biri onun təbii ehtiyatlarla məhdud olması idi. Bu öz əksini Ermənistanın Gürcüstan vasitəsilə tranzit olunan Rusiya nefti və qazından tam asılı olmasında tapmışdır. Buna görə də Ermənistan Aİ-nin iqtisadi maraqlarında Azərbaycan kimi mühüm yer tuta bilməmişdi. Yalnız Qarabağ münaqişəsinin həlli və nəqliyyat kommunikasiya təcridliyinin aradan qalxması nəticəsində ölkə iqtisadiyyatının davamlı inkişafı üçün əlverişli şərait yaranmış ola bilərdi. Xəzər neftinin Ermənistan ərazisindən keçərək tranziti rəqabəti gücləndirə bilərdi. Lakin Qarabağ münaqişəsinin mövcudluğu, Azərbaycanla və Türkiyə ilə qarşıdurma şəraitində bunun realllığa çevrilməsi qeyri-mümkün idi.

Gürcüstanın mühüm strateji ehtiyatı onun əlverişli coğrafi mövqeyi, Qara dəniz sahilində Poti və Batumi limanlarının olması idi. Bu Gürcüstana karbohidrat ehtiyatlarının bölgüsündə, neft və qaz nəqli və tranziti layihələrində mühüm yer tutmağa imkan vermişdi. Gürcüstanın Xəzər neftinin nəqlinin kompleks layihəsində iştirakı onun yaxın və uzaq xarici dövlətlər içərisində ön səhnəyə çıxmasına, Avroasiya nəqliyyat dəhlizi olan "Avropa-Qafqaz-Asiya"nın (TRASECA) reallaşması isə onun müvəffəqiyyətlə dünya təsərrüfatına inteqrasiyasına səbəb olmuşdu. Bu istiqamətdə ilk addım Bakı-Supsa neft kəmərinin açılışı və gürcü limanı Poti ilə Bolqar limanı Burqas arasında daimi bərə xidməti olmuşdu [5, s.149].

Aİ-nin region dövlətləri ilə ticarət-iqtisadi əlaqələrinin inkişaf strategiyasını hazırlayarkən regionda təhsilin və əhalinin peşəkarlıq səviyyəsinin kifayət qədər yüksək olmasına xüsusi əhəmiyyət vermişdir.

Beləliklə Avropa İttifaqı Cənubi Qafqaz regionunda müstəqil və koordinasiya edilmiş siyasət həyata keçirməkdə ilk növbədə enerji sahəsində əhəmiyyətli maraqlara malik olmuşdu [13, s.35]. İqtisadi motivlərdən savayı regiona münasibətdə vahid strategiyanın məqsədlərindən biri Avropa təhlükəsizliyinin təmin edilməsi olmuşdu. MDB məkanında yeni yaranmış dövlətlər bu təhlükəsizliyin mənbəyi olmuşdular.

Nəticə. Beləliklə, Aİ enerji resurslarının ideal mənbələrinin genişlənməsinə enerji bazarının liberallaşmasına yönəlmiş diversifikasiya strategiyasının əsası kimi baxırdı. Bu strategiya neft və qazın idxalının həcmindən asılı olmayaraq müntəzəm davam etdirilirdi. Belə yanaşma Aİ-nin Cənubi Qafqaz siyasətinin əsasını təşkil edirdi.

ƏDƏBİYYAT

1. Aİ-nin xarici siyasət fəaliyyətinin Avropa xidmətləri saytı // URL: http://eeas.europa.eu/blacksea/doc/jointstatement.blackseaen.pdf [25.09.2025].
2. AR Dövlət Statistika Komitəsinin illik hesabatları. 2006-2010-cu illər.
3. Барсегов,Ю.Г. Каспий: в Международном праве и мировой политике и МЭМО РАН / Ю.Г.Барсегов. – Москва: – 1998.

4. Беридзе, Г.А. Центральный Кавказ и экономика / Г.А.Беридзе, Э.М.Исмаилов, В.Г.Папава. – Грузии-Баку: Издательство “Нурлан”, – 2004. – 248 с
5. Гаджиев, К.С. Геополитика Кавказа / К.С.Гаджиев. – Москва: Международные отношения, – 2001. – 464 с.
6. Гулиев, М.Е. Энергетическая проблема во внешнеэкономической стратегии стран СНГ / М.Е.Гулиев. – Санкт-Петербург: Издательство СПбГУЕФ, – 2005. – 99 с.
7. Садыгов, Р.А. Европейский Союз и Южный Кавказ: геополитические и экономические интересы и механизмы их осуществления // Журнал научных публикаций аспирантов и докторантов, 2009, №9. http://jurnal.org/articles/2009/politl7.html [25.09.2025].
8. Comission Europeenne, Livre Vert, Vers une strategie europeenne de securite d’approvisionnement energetique, Com (2000) 769 final, Bruxelles, 29.11.2000.
9. Commission of The5European Communities, Brussels, 13.12.1995. com (95) 682 final white paper. An Energy Policy for the European Union (Presented bu the Commission) 45 p.
10. European Parlament, Resolution on the communication from the comission entitled Towards a European Union strategu for relations with the Transcaucasian Republics (COM (95) 02 05-C4-02 42/96), 24 September 1996.
11. European comission, DG TREN, “Enlargement and European energy policy” 12
12. “European energy to 2020-a scenario approach” ECSE –EC-EAEC, Bruseels, 1996
13. Hajiyeva, Kh.Z. Interests of Euroepan Union in the Caucasus // Geopolitica, – Bucharest: – 2011. – p.33-37.
14. Politi,A.European security: The NewTransnational Risks //Chaillot Paper/insf.For Secuurste studies, Western European Union–1997.№29 oct.Reflection Group’s Report. Messina 2 June 1995. Brussels 5th December 1995.
15. Le Monde, 11.07.1998, Energy Departament of USA,1997.

ХАТИРА ГАДЖИЕВА
доктор философии по истории, доцент АУЯ,
кафедра Кавказоведение и История Азербайджана

ИНТЕРЕСЫ ЕВРОПЕЙСКОГО СОЮЗА НА ЮЖНОМ КАВКАЗЕ В КОНТЕКСТЕ ГЛОБАЛИЗАЦИИ

Внешняя политика Европейского Союза в регионе Южного Кавказа, расположенном на перекрестке Европы и Азии, является составной частью его политики, отражающей стратегические интересы Европы. Этот регион, ставший за последние десятилетия ареной политических и экономических изменений, стал важным объектом внешней политики Европейского Союза, который стремится укрепить здесь свои позиции. На формирование политики ЕС в отношении Южного Кавказа оказал влияние ряд географических, экономических, факторов безопасности и исторических факторов. В контексте внешней политики Европейского Союза большое значение имеет определение факторов, затрагивающих его интересы.

Ключевые слова: Европейский Союз; Южный Кавказ; энергетика; сотрудничество; регион; Каспийское и Черное море;

KHATIRA HAJIYEVA
PhD in history, assosiate professor of Azerbaijan University of Languages

THE EUROPEAN UNION'S INTERESTS IN THE SOUTH CAUCASUS IN THE CONTEXT OF GLOBALIZATION

The European Union's foreign policy in the South Caucasus region, located at the crossroads of Europe and Asia, is a component of its policy reflecting Europe's strategic interests. This region, which

has become an arena of political and economic changes over the past decades, has become an important foreign policy object for the European Union, which is trying to strengthen its position here. A number of geographical, economic, security, and historical factors have influenced the formation of the EU's policy regarding the South Caucasus. In the context of the European Union's foreign policy, it is of great importance to determine the factors affecting its interests.

Keywords: European Union; South Caucasus; energy; cooperation; region; Caspian and Black Sea.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Şahismayıl İsmayılov, t.ü.f.d. Məmmədağa Baxışov.